BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2014

UOT 94 "04/15"

# KRIMIN QIZ QALALARI TARİXİNDƏN

**A.Ə.MEHDİYEVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*ayten-69@mail.ru*

*Orta əsr müdafiə tikililəri içərisində mühüm yeri olan Qız qalaları geniş bir arealda yayılmışdır. Onlara su hövzələrinin sahilində, şəhərlərin daxilində və ətraflarında, daha çox da əlçatmaz, hündür dağlarda, qayalarda rast gəlinir. Bu abidələrin tarixinin öyrənilməsi Qız qalalarının yayılma arealını, həmin qalaları inşa edən xalqların qədim inamlarını müəyyən etməyə şərait yaradır. Krım Qız qalalarının araşdırılması zamanı onun daha qədim tikililərin üzərində inşa olunması aşkar edilmişdir. Qədim inamlarla bağlı olan bu qalanın tarixin müxtəlif dövrlərində fərqli məqamlardan çıxış etməsi həmin abidənin tarixinin araşdırılmasını daha da maraqlı edir.*

**Açar sözlər:** Qız qalası, Qız Kermen, Krım, Od qalaları, Kırkor, müdafiə qalası

Qədim və orta əsr abidələri içərisində özünəməxsus yer tutan Qız qalaları özünəməxsus inkişaf yolu keçmişdir. Onlara geniş ərazilərdə, xüsusilə hündür qayalarda daha çox rast gəlinir. Bu baxımdan Krım Qız qalaları istisnalıq təşkil etmir [1]. Baxçasaraydan cənub-qərbdə, Maşino kəndi yaxınlığında eyni adlı dağın zirvəsində yerləşən Kız-Kermen Krım tatarlarının dilində "Qız qalası" mənasını bildirir. Bu şəhər yeri Kız-Kule burnunun sonunda dağ yaylasında yerləşir [2]. Sıldırım qayalarla əhatələnən Kız-Kermen yalnız şimaldan dar bərzəx vasitəsilə yayla ilə əlaqələnir. Qalaya bərzəxlə birbaşa eni təxm. 2,5 metr olan qayada çapılan yol uzanır. Kız-Kermen adlanan şəhər 1,3 ha-lıq ərazini əhatə etmiş, şəhər qalası isə əsası 6,3x6,8 m, 3 kurtina (iki istehkam arasında sədd) və 2 qüllədən ibarət olmuşdur [3]. Şəhər müdafiə divarının uzunluğu 130 metr olub, daxildən və xaricdən güclü möhkəmləndirildiyinə görə, onun qalınlığı 8 metrə çatırdı. O, özünün memarlıq xüsusiyyətlərinə əsasən Xəzər xaqanlığı yaşayış yerlərini əhatə edən müdafiə divarları ilə analoq təşkil edirdi [4].

Krım ərazisində çox yaxın bir ərazidə iki Qız qalasının yerləşməsi faktı ortaya çıxır. Bu iki Qız qalasından biri Beşik Taunun şərqində sıldırım dağ zirvəsində [5], Qız Kermen isə Bağçasaray rayonunda yerləşir. Azərbaycanda

da yaxın ərazidə iki Qız qalasının mövcudluğu ilə rastlaşırıq. Orta əsr müəllifləri H.Qəzvini [6, 780], Ə.Bakuvi [7, 89]. Bakıda Qız qalası ilə yanaşı ikinci Qız qalasının mövcud olmasını bildirirdilər. Bu fakta əsaslanan D.Axundov Bakı Qız qalasının oxşarı olan qalanı bərpa etmişdi [8, 106]. Azərbaycanın mədəniyyət abidələrinin arasında xüsusi mövqe tutan Gülüstan (Şamaxı Qız) qalası Krım Kız-Kermenində olduğu kimi, sərt eniş, uçurumlu dərə və keçilməz yollarla əhatə olunmuşdur. Həmin zonada Buğurt qalasının cənub qurtaracağında yarımdairəvi bürcü olan, enli divar vasitəsi ilə qalanın ön istehkamı ilə birləşən digər Qız qalasına rast gəlinir. Tikintidə arxaik elementlər üstünlük təşkil etmişdir. Bu isə Buğurt qalasının inşasından əvvəl Qız qalasının mövcud olması və dini məqsədlə istifadə edilməsi fikrinə gətirib çıxarır [9, 20].

Şamaxı Qız qalası ilə oxşarlıq təşkil edən Kız-Kermendə güclü müdafiə qabiliyyətinə malik olan yaşayış yerinin yerləşdiyi yaylaya şimaldan daxil olarkən çətinliklə rastlaşılmasa da, buranın cənub hissəsi kifayət qədər etibarlı sığınacaq sayılmışdır. Eranın əvvəllərində burada skif məskənləri, erkən orta əsrlərdə həmin məskənlərin ətrafında güclü müdafiə divarları tikilmişdir. Güman ki, qonşu Bizans qalalarından fərqlənən bu qalanı xəzərlər inşa etmişdilər [10]. Alman alimi F.Althaym [11] hunlar haqqında məlumat verərkən göstərirdi ki, möhtəşəm qala və şəhərləri almaq qabiliyyətinə sahib olan hunlarda (o cümlədən, xəzərlərdə) sənətkarlıq (xüsusilə silahqayırma) inkişaf etmişdir. F.Althaym Cənubi-şərqi Avropa ərazisinə yayılan bulqar, kəngər, peçeneq və xəzərlər kimi türk etnoslarını məhz hunlara aid edirdi [12, 4,5]. Eyni zamanda Kız-Kermeni Fulla şəhəri ilə eyniləşdirərək onun xəzərlər tərəfindən dağıdılması barədə fərziyyə mövcuddur [13]. Yüksək hərb sənətinə malik olan, dövrünün güclü müdafiə istehkamlarını tuta bilən, bir çox sənətlər üzrə usta olan xəzərlərin Krımda məskən salmaları yalnız yerli əhali ilə qohumluğu ilə şərtlənməmiş, onları burada məskunlaşmağa vadar edən, güman ki, daha fərqli səbəblər olmuşdur. Xəzərlərə məxsusluğu güman edilən Kız-Kermen inşa texnikasına görə qonşu Bizans müdafiə tikililərindən fərqlənmişdir [10]. Kız-Kermen abidəsinin öyrənilməsi zamanı məlum olmuşdur ki, onun müdafiə divarları daha qədim tikililərin üzərində inşa olunmuşdur [14]. Bakı Qız qalası istisna olmaqla, Azərbaycanda inşa olunan Qız qalalarının (Şamaxı, Gədəbəy, Zəngilan və s.) əksəriyyəti üçün bu hadisə xarakterikdir. Gədəbəy Qız qalası Söyüdlü kəndindən 7-8 km cənubda, Şəmkir çayı ilə Mis çayının qovuşduğu yerdə, müdafiə əhəmiyyətinə malik qayanın üzərində inşa edilmişdir [15, 51]. Qız qalasından 3 km şimala doğru xarabalıqları qalan Qızıl qala adlanan qədim qala mövcud olmuşdur [16, 70-72]. Həmin qalanın Girdman dövlətinin əsas qalalarından biri olması və Qız qalası ilə yaxın bir ərazidə inşa edilməsi bu regionun iqtisadi, strateji və hərbi baxımdan mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Hər iki qalanın daxil olduğu bu kompleks, Krımdakı Kız-Kermen kimi, qədim şəhəri xatırladır.

Beləliklə, müqayisə aparılan hər dörd tikili daha qədim tikili qalıqlarının üzərində inşa olunmuş, inşa olunduğu erkən dövrdəki funksiyalarını tədricən

itirmiş, orta əsrlərdə daha çox müdafiə xarakteri daşımış, iki Qız qalası yaxın bir ərazidə yerləşmişdir.

Krım Qız qalaları kimi, Azərbaycan Qız qalaları da Erkən orta əsrlər dövründə dağ qalası kimi daha çox müdafiə xarakteri daşısa da, onların inşa texnikası və aşkar olunan mədəniyyət qalıqları bu qalaların şəhər kompleksinin tərkib hissəsi olduğunu göstərməyə imkan verir. Azərbaycanda Qız qalaları ilə yanaşı Mahrasa məbədi, Qızıl qala kimi abidələrin mövcudluğu inşa olunan qalaların həm də qədim dini inamlara dayandığını göstərir. Bunu istər Qız qalalarının mövqeyi, istərsə də dağa sitayiş kultunun dərindən araşdırılması da sübut edir. İslam dininin qəbulu bu inamları tamamilə məhv etməmiş, yalnız müəyyən funksiyaların dəyişməsinə səbəb olmuşdur.

Kız-Kermenin VII-VIII əsrlərdə özünün yüksək inkişaf səviyyəsinə çatmasından [2] sonra IX əsrin sonu – X əsrdə süquta uğraması bəllidir. Buna səbəb kimi, bir tərəfdən, Bizansa məxsus Xersop feminin (hərbi-inzibati dairə) salınması [17], digər tərəfdən, Kırkor (Çuft-Kale) ilə rəqabətə tab gətirə bilməməsi göstərilir [10]. Yerli əhali Kız-Kermenin süqutundan sonra buradan təxminən 3 km şimalda yerləşən Kırkorda məskunlaşmışdılar. Burada diqqəti Kırkor toponimi cəlb edir.

Hələ XX əsrin əvvəllərində R.Haqqı tərəfindən Qız qalalarının uğuz/ ğuz tayfaları tərəfindən tikilməsi, ona görə də Uğuz/ ğuz qülləsi adlandırılması, tədricən Qız qalalarına çevrilməsi göstərilmişdir [18, 11]. Q.Qeybullayev Qız qalalarının adındakı "qız" sözünü tarixi hadisələr zəminində oğuz (ğuz) etnoniminin fonetik şəkli hesab edir [19, 31]. "Ğuz" sözünün "qız" formasına düşməsini türkoloq İ.A.Baskakov qırğız toponiminin timsalında sübut etmişdir. Bu barədə tədqiqatçı S.P.Tolstovun "Oğuz şəhərləri" adlı məqaləsindən məlumatlanmaq olar [20, 55]. "Ğuz" sözü iki tərkib hissədən "ğ" və "uz"-dan ibarətdir. Birinci hissə "ğan" şəklində olmuş, "uz" ilə birləşdikdən sonra "an" düşmüş, söz "ğuz" şəklində formalaşmışdır. "Ğan" isə "kan" (xan) mənasını bildirir. M.Seyidov "uz" sözünün fonetik dəyişikliyə uğradığını, "işıq", "isti" və s. kimi sözlərdə "iş", "is" kökünün işıq, od, bununla əlaqədar olaraq hərarəti, istini bildirdiyini göstərir. Bu isə göstərir ki, "ğuz" işıq, istixana mənasını bildirir. Ğuz qalalarının tikilməsi isə, güman ki, qədim türk qəbilələri və qəbilə başçılarının istiyə, işığa, deməli, oda sitayiş etmələri ilə bağlı olmuşdur. "Qız" və "ğuz" sözlərinin "od", "işıq" ilə bağlı olması qalanın od ilə əlaqədar tikilməsi fikrini sübut edir [21, 50-51]. Məsələni araşdırdıqda qız-qadın obrazlarının erkən mərhələdə müxtəlif fiqurlarda əks olunması ilə rastlaşırıq. Nəslin yaranması və davam etməsinə, ailənin idarə olunmasına məsuliyyət daşıyan qadın odun (ocağın) da qoruyucusu hesab olunurdu. Azərbaycanda Şomutəpə abidəsində 7500 il yaşı olan yaşayış evində ocağın üzərində təxm. 40 sm hündürlükdə sümükdən hazırlanmış qadın fiqurunun tapılması bu fikri təsdiq edir. Ev bütləri qadın – od obrazında təcəssüm olunur, qədim yaşayış evlərində bu əsasda kiçik kult ocaqları yaranır, tədricən ayrı-ayrı bütxanalar, məbədlər və qalalar meydana gəlirdi.

Türk dillərində “qız” sözü demək olar eyni cür səslənir. Tatarlarda “kız”, yakutlarda “kus”, türkmənlər, uyğur, qədim və orta türk dillərində “kuz”, cığatay dilində “qız”, altaylarda “kus”, çuvaşlarda “xər” kimi yazılır və “qız” mənasını verir. Bu sözün ilkin formasının qyr (kyr) olması V.A.Terentyev və başqa türkoloqlar tərəfindən qəbul olunmuşdur [22, 72]. “Qız” sözü ilə “qor” (od) sözünün tarixi yaxınlığı məsələsi ilə maraqlandıq. Azərbaycanlı alim F.Cəlilovun fikrincə, r//z papalelliyini birbaşa keçid kimi izah etmək mümkün deyil, çünki r//z paralelliyi qədim türk dialekt fərqidir və bu fərq hələ pratürk dövründən-türk dillərinin kök dildən ayrılıb parçalandığı dövrdən mövcuddur [23, 115-116]. Dilçilikdə türk dilləri arasında sait paralelləri və sait dəyişmələrini nəzərə alaraq ı~o sait keçidi mövcuddur. Öz kökünü pratürk dövründən götürən qor (od) sözü, güman ki, prototürk dili dövründə qeyd etdiyimiz dəyişikliklər əsasında qız kimi işlədilməyə başlamışdır. Azərbaycan dilində “qız” sözü həm də “qızıl”, “qızarmaq”, “qızınmaq” və s. sözlərdə işlənir və isti, od ilə əlaqədardır. Ona görə də “qız” sözünün qədim formasının “qor” (od) olmasını düşünmək olar. Qız sözünün ilkin formasının qor (od) olması fikri əsasında Qız qalasının Od qalası olması fikrini irəli sürməyə imkan verir.

Krımda yerləşən Kırkor qalası mənbələrdə və xalq arasında Çufut-kale kimi də tanınır. Çufut-kalenin bir tərcüməsi yəhudi qalası kimi səslənsə də, digər tərcüməsi türk dilinə əsasən aparılmış və Cuft-kale (qoşa, cüt qala) mənasını bildirmişdir [24]. Bu, yəqin ki, qalanın Kız-Kermenlə qoşa olması fikrini ifadə edirdi. Qız qalalarının yayıldığı ərazilərdə onların Kırkor kimi adlandırılması faktına rast gəlməmişik. Ona görə də bu toponimin kökünün aydınlaşdırılması üçün daha qədim dövrlərdən başlayaraq günümüzə qədər inkişaf formalarını diqqətdən keçirməyi vacib bildik. Bunlara əsasən demək olar ki, Kırkor toponimi elə Qız qalası deməkdir.

Türk xalqlarının yaşadıqları ərazilərdə tikilən Qız qalalarının heç biri Kız-Kermen (Krım) kimi daha yüksək inkişaf səviyyəsinə çata bilməmişdir. Azərbaycan Qız qalaları daha çox konkret bir abidəyə qoyulmuşdur. Yalnız Azərbaycan Qız qalaları içərisində xüsusi yer tutan Bakı Qız qalası ilə bağlı fərqlilik mövcuddur. Bakı şəhərinin adlarından birinin “Ataş-Baqavan” (Atli-Baqavan) toponiminin “Allah şəhərinin odları” (S.Aşurbəyli) kimi mənalandırılması, onun orta əsr müəllifi Kəsrəvi Təbrizinin əsərində “şəhərin oda sitayiş edənlərin baş məbədinin burada yerləşməsi ilə bağlı olaraq belə adlanması” məlumdur [25, 42]. Burada Qız qalası oda sitayiş edənlərin baş məbədi kimi çıxış etsə də, şəhər qalanın adını daşımır. Krımda isə bu ad yalnız qala adını bildirməmiş, erkən orta əsrlərdə demək olar ki, şəhərə çevrilən yaşayış yerinə şamil edilmişdir. Burada maraqlısı odur ki, Kız-Kermenin süquta uğraması Kırkor (Çufut qala) şəhərinin adı ilə bağlıdır [10]. Kız-Kermenin öz mövcudluğunu başqa Qız qalasında (Kırkor) davam etdirməsi hadisəsi ilə üzləşirik. Bu hadisə Qız qalalarının tarixini araşdırarkən rast gəlinməyən bir hadisədir. Bir Qız qalasında yaranan, inkişaf edən hadisələr (şəhərlərə xas olan xüsusiyyətlər (sənətkarlıq və ticarətin inkişafı, müdafiə qabiliyyətinin gücləndirilməsi və s.)

digər Qız qalasında daha yüksək inkişaf səviyyəsinə çatmışdır. Kırkor IX əsrdən XIX əsrin ortalarına qədər inkişaf edərək öz mövcudluğunu saxlamışdı [17].

Krım və Azərbaycan Qız qalaları haqqında çoxsaylı əfsanələr mövcuddur. Kız-Kermenlə bağlı əfsanələrin birində əsir alınan qızların qaladan atılması, digərində şəhər hakiminin qızının nişanlısını öldürməsi, buna görə məhv olmasından danışılır [17]. Oxşar süjetlərə Azərbaycan Qız qalaları ilə bağlı əfsanələrdə rast gəlinir. Yaranması e.ə.VIII-VI əsrlərə aid edilən Bakı Qız qalası ilə bağlı əfsanədə Od ilahəsinin öz şəhəri, məbədi və qalasını yadellilərin təcavüzündən qoruması ətraflı təsvir olunur [8, 73]. Əfsanələrin hər ikisində qadınların cəmiyyətdə müstəqil mövqe tutması (Od qızının özünün qərar çıxarması (Bakı), şəhər hakiminin qızının dövlət işlərini idarə etməsi (Krım)), hərbi əməliyyatların kəskinləşməsi (şəhərin mühasirəyə alınması, yadellilərin onu tutmaq istəməsi (Bakı), orta əsrlərə xas olan ticarət-sənətkar əhali ilə feodalların maraqlarının toqquşması (Krım)), cəmiyyətdə yalnız qızların yaranmış ağır vəziyyətdən xilas yolunu müəyyən etməsi (Od qızının şəhəri xilas etmək üçün düşmən ordusunun başçısını qətlə yetirməsi (Bakı), Kız-Kermenin hakiminin qızının Təpə-Kermenin başçısının varisini öldürməsi (Krım)), bu hadisələr fonunda təbii kataklizmaların baş verməsi (hər iki halda zəlzələnin olması, Bakı Qız qalasında bunun nəticəsində təbii qazın çıxmasının dayanması, Krımda Kız-Kermeni Təpə-Kermenlə birləşdirən körpünün uçması, daşların dağılması) öz əksini tapmışdı.

Krım və Azərbaycan Qız qalaları ilə bağlı əfsanələr araşdırıldıqda bəlli olur ki, bu materiallar matriarxatın sona yetməsini göstərməklə yanaşı qədim insan qurbanvermə mərasimlərinin qalıqlarını özündə əks etdirir. Quruluşu, edilən əlavələr, əfsanələrin unudulacağından ehtiyatlanan insanların əfsanələri sonrakı tarixi hadisələrlə əlaqələndirməsindən asılı olmayaraq, bu süjet Qız qalaları ilə əlaqədar xatırlanır. Azərbaycan Qız qalalarının heç birində insan qurbanvermə mərasimi və onun qalıqlarının izlərinə rast gəlinmir. Krımda Kız-Kermen abidəsinin müdafiə divarında III əsrə aid uşaq qurbanvermə mərasiminin izi dövrümüzə gəlib çatmışdır [14]. Əfsanələrdə verilən materialların sonluqlarında baş verən hadisələri izlədikdə təbii ki, müasir dövrdə bəzi anaxranizmlər diqqətimizi cəlb etdi. Belə ki, müasir dövrdə də Qalamada (Afrika) yeni tikililəri möhkəmləndirmək məqsədilə onların qarşısında oğlan (mütləq) və ya qız (bəzən) uşaqlarının diri-diri basdırılması faktı ilə qarşılaşırıq. Oxşar hadisəyə qədim Rus dövləti, Balkan yarımadası, Almaniya (Libenşteyn qalası) və s. rast gəlmək mümkündür [26]. Bu mərasimlər vasitəsilə insanlar Allah ilə ünsiyyətə girməyə, ondan kömək almağa, özünün təhlükəsizliyini təmin etməyə, günahlarını yumağa və s.-yə çalışırdı [27].

Beləliklə, Qız qalaları tikildikləri ərazidə təbii baxımdan əlçatmaz mövqeyə malik olmaları ilə fərqlənirlər. Bu qalalar düzən ərazidə, şəhərlərdə inşa olunsa da, onların toxunulmazlığı dövrün hakim qüvvələrinin həll etməli olduğu məsələlərdən idi. Krım, Azərbaycan, Türkiyə və s. ərazilərdə rast gəlinən

Qız qalaları inşa olunduqları dövrün maddiləşmiş simvolu olmaqla öz dövrünün inşa texnikası, dini inamları, tarixi hadisələri, təbii dəyişikliklər və s. barədə məlumatları dövrümüzə qədər gətirmişdilər. Qız qalaları tarixinin öyrənilməsi dövrümüzdə unudulmuş bir çox məsələlərə aydınlıq gətirməyə kömək edir.

**ƏDƏBİYYAT**


1. www.crimea
2. www.isar.org.ua
3. www.gate.crimea. ua
4. www.bikz.org/kyz-kermen.html
5. www. bikr.org
6. Бартольд В. Сочинения. Т.II. М.: Вост.лит., 1963, 763 с.
7. Абд ар-Рашид ал-Бакуви. Китаб талхис ал-асар ва’аджа’иб ал-малик ал-kаххар. Пер. З.М.Буниятова. М.: Наука, 1971, 197 с.
8. Ахундов Д. А. Архитектура древнего и раннесредневекового Азербайджана. Б., Азернешр, 1986, 311 с.
9. Mehdiyeva A. Qız qalalarının mənşəyinə dair // Tarix və onun problemləri, 2010, № 2, s. 17-22
10. www.jalita.com/guidebook/came
11.Altheim F. Atilla und die Hunnun. Baden-Baden, 1951
12. İlyasova X.İ. Xəzərlər və Azərbaycan.T.ü.f.d....dissert.avtoreferatı. Bakı, 2013
13. www. vhodv. com/ ekskursii/ Kiz-kermen.html
14. www.pirogova-saki.ru
15. Haqverdiyev T.Ş. Gədəbəy: ulu yurdun yaddaşı. Bakı: Gənclik, 1998, 104 s.
16. Haqverdiyev T.Ş. Abidələr tarixin sirdaşıdır. Bakı: Gənclik, 1982, 88 s.
17. www.poluostrov-krym.com.ua
18. Haqqı R. Azərbaycanın qədim asarından // Qızıl qələm, 1924, № 1, s.11-13
19. Qeybullayev Q.Ə. Qədim ellər və qalalar// Elm və həyat, 1978, № 3, s.30-33
20. Толстов С. П. Города гузов // Советская этнография, 1947, № 3, с. 55- 60
21. Mehdiyeva A.Ə. Qız qalaları haqqında// Azərbaycan onomastikası problemləri VII. Bakı, 1999, s.50-53
22. Терентьев В.А. Древнейшие тюркские заимствования в языках Европы. Советская тюркология, 1990, № 4, с. 69-73
23.Azərbaycan tarixi üzrə qaynaqların öyrənilməsi problemləri. Bakı: ADU, 1988, 121 s.
24. www.Чуфут-Кале. wikipedia.org
25. Ашурбейли С.Б. Очерк истории средневекового Баку (VIII- нач. XIX вв.). Баку: АН Азерб. ССР, 1964, 336 с.
26. www.maxbooks.ru/relige /rihit.htm
27. www.dic.asademic.ru


**ИЗ ИСТОРИИ ДЕВИЧЬИХ БАШЕН КРЫМА**


**А.А.МЕХТИЕВА**


**РЕЗЮМЕ**


Девичьи башни, занимающие особо важное место среди оборонительных сооружений Средневековья, были распространены на довольно обширном ареале. Оборонительные сооружения чаще всего можно было встретить на берегах водоёмов, в пре-

делах и за пределами больших городов, а также в недоступных и горных местностях и скалах. Изучение истории этих древних памятников создает условие для определения ареала распространения Девичьих башен, а также древних верований народов, создавших эти оборонительные сооружения – памятники древности.

**Ключевые слова:** Девичья башня, Кыз-Кермен, Крым, башни Огня, Кыркор, оборонительные сооружения

## FROM THE HISTORY OF THE MAIDEN TOWERS OF CRIMEA

**A.A.MEHDIYEVA**

### SUMMARY

The Maiden Towers, important defence constructions of the Middle Ages, have spread to rather spacious areas. The defences mostly lie on the banks of basins, inside or outside of big cities, as well as in inaccessible and mountainous places and rocks. The investigation of the history of these ancient monuments gives an opportunity to determine locations of the Maiden Towers, as well as the ancient beliefs of peoples who created these defences – the monuments of antiquity.

**Key words:** the Maiden Tower, Kyz-Kermen, Crimea, the towers of Fire, Kyrkor, the defences